# İÇİNDƏKİLƏR

ÖN SÖZ ........................................................ 7

I HİSSƏ

SUİ-QƏSDÇİLƏRİN İERARXİYASI:
KOMİTET 300-ün TARİXİ ........................................................ 12
ÜMUMİ ŞƏRH VƏ BƏZİ NÜMUNƏLƏR ............................. 16
ROMA KLUBU ........................................................ 23
OLİMPİYAÇILAR ........................................................ 48
XRİSTİAN FUNDAMENTALİSTLƏRİ ................................... 82

II HİSSƏ

NƏZARƏT BU TƏŞKİLATLAR VASİTƏSİLƏ
HƏYATA KEÇİRİLİR ........................................................ 91
İCTİMAİ RƏYİN FORMALAŞDIRILMASI ........................... 115
STENFORD TƏDQİQAT İNSTİTUTU ....................................... 125
İTİRİLMİŞ MİLLƏT ........................................................ 135
BU QÜVVƏ BOLŞEVİK İNQİLABINI
HƏYATA KEÇİRİB ........................................................ 145
"BİTLZ" FENOMENİ ........................................................ 157
NARKOTİKA TİCARƏTİ ........................................................ 172
DƏYİRMİ MASA ........................................................ 253

DÜNYA HÖKÜMƏTİ ............................................................. 264
MOSSAD VƏ Mİ-6 ................................................................... 291
KOMİTET 300-ün STRUKTURU ........................................... 299
İCTİMAİ RƏYLƏ MANİPULYASİYA .................................. 324
NİKSONUN İSTEFASI.................................................. 344
"DİTÇLİ FONDUNUN" PLANI ............................................ 360
YEKUN .................................................................................. 364

## ƏLAVƏLƏR

KOMİTET 300-ün KEÇMİŞDƏ VƏ HAZIRDA FƏALİYYƏT GÖSTƏRƏN, ELƏCƏ DƏ BİLAVASİTƏ ONUN TƏSİRİ ALTINDA OLAN İDARƏ VƏ TƏŞKİLATLAR ......................... 367
XÜSUSİ FONDLAR VƏ MARAQLAR QRUPLARI ............ 375
BANKLAR ............................................................................ 377
HÜQUQ ASSOSİASİYALARI VƏ FİRMALARI .................. 383
BİRLƏŞMİŞ ŞTATLARDA "TAVİSTOK"UN İDARƏLƏRİ ........................................................................ 384
KOMİTET 300-ün KEÇMİŞ VƏ İNDİKİ ÜZVLƏRİ ............. 403
HƏQİQƏTİ AXTARANLARA MÜRACİƏT ......................... 415

# ÖN SÖZ

Oxucuların diqqətinə təklif olunan bu kitab bəşəriyyətə qarşı qatı düşmən mövqedə duran qüvvələrin dağıdıcı fəaliyyətini qərəzsiz, obyektiv və dəlil-sübutlu işıqlandırır. Fərdi məqsədlər güdən bu qüvvələrin taktiki vəzifələrindən birini dünya miqyasında insanların əsarət altına alınması təşkil edir. Həmin vəzifə qlobal idarəçilik və nəzarət sistemi vasitəsilə yerinə yetirilməlidir ki, bu sistem çoxlarına "Yeni Dünya Nizamı" adı altında bəllidir.

Bu qlobal ideyanın icraçılarının təşkilati-sosium strukturu, cəmiyyətin idarə edilməsi və insanların fərdi və kollektiv şüuruna təsir göstərmək üsulları, insanlarla manipulyasiyanın miqyasları, əhatə dairəsi Göbbelsin heç yuxusuna belə girməyən aqressiv informasiya-təbliğat fəaliyyətinin metodları kitabda çox zəngin faktiki material əsasında açılır, gizlin və çağırılmamış gələn dünya hökuməti tərəfindən həyata keçirilən ən aşkar cinayətlər sadalanır.

TƏXRİBATIN MİQYASLARI dəhşətə gətirir: dövlət, maliyyə-iqtisadi, təhsil və digər ictimai institutların HA-

MISI ələ keçirilmiş və sərt nəzarət altındadır. Üstəlik, TOTAL NƏZARƏT təkcə ictimai səviyyədə həyata keçirilməyərək, həm də hər bir şəxsin fərdi şüuruna nəzarət səviyyəsinə çatdırılıb. Bu qüvvələr öz dağıdıcı fəaliyyətlərinin əsası qismində DƏYİŞDİRMƏK prinsipini götürüblər. Hər şey - insanın gen tipindən və onu əhatə edən mühitdən tutmuş, insanların mentaliteti və şüuru, insanın davranışının təbii və ənənəvi stereotiplərinədək hər şey məqsədyönlü, planlaşdırılmış və dönməz şəkildə dəyişdirilir. Bununla yanaşı, müəllif bu qüvvələrə gözəçarpmamağa və cəzasız qalmağa imkan verən əsas qanunauyğunluğu da çox dəqiq qeyd edir – bu qanunauyğunluq bəşəriyyətin düşmənlərinin həyata keçirdikləri dəyişikliklərin tədriciliyi və hissolunmazlığıdır. Onların fasiləsiz destruktiv fəaliyyətinin bəşəriyyət üçün törətdiyi neqativ nəticələr özünü uzun illərdən və onilliklərdən sonra büruzə verir.

Kitabın məzmunundan birmənalı nəticə çıxır: "demokratların" və "liberalların" bizi cidd-cəhdlə daxil etmək istədikləri Qərb cəmiyyətinin bütün sahələri, o cümlədən də ilk növbədə siyasi-dövlət quruluşu VAHİD MƏRKƏZ tərəfindən yaradılmış və idarə olunan açıq və bağlı (gizlin və məxfi) təşkilatlardan, kütləvi informasiya vasitələrindən və digər strukturlardan ibarət ümumdünya şəbəkəsinin **tam nəzarəti altındadır.** Müəllif bu mərkəzi "Komitet-300" adlandırır. Komitet 300 artıq Şərq və Asiya cəmiyyətlərinə sözəbaxan "nökər" rolunu ayırıb, odur ki, indi bütün dünya onun ayaqları altındadır.

Bu kitab Rusiyada və MDB ölkələrində baş verən hadisələrlə bağlı oxucularımız üçün xüsusilə aktualdır və Qərbdə, ümumiyyətlə, bütün dünyada vaxtilə səs-küy salmış hadisələr və hazırda ölkəmizdə baş verənlər arasında çoxsaylı paralellər və analogiyalar aparmağa imkan verir. Rusiyanın və keçmiş SSRİ ölkələrinin maliyyə-iqtisadi və "demokratik" ideologiyalı ümumdünya sisteminə "daxil edilməsi" kənardan genişmiqyaslı təsirlərə, insanların şüurunun manipulyasiyasına və "dünya hökumətinin" agentlərinin bizim xalqlarımızı idarə etməsinə geniş yol açıb. Kitab vətənpərvər ruhda olan oxucunun şüurunu müəyyən yüksəkliyə qaldıraraq müasir dövrdə və yaxın keçmişdə baş verən bir çox hadisələrə və təzahürlərə sistemli və kompleks şəkildə, necə deyərlər, "quşun uçduğu yüksəklikdən" baxmağa imkan verir.

Müəllif öz mövqeyini gizlətmir – Amerikada yurd salan ilk ağdərili sakinlərin ingilis-sakson, protestant, azadlıqsevər və müəyyən dərəcədə hətta qiyamçı ruhu kitaba sirayət edib və bu mənada o, sözsüz ki, öz ölkəsinin və xalqının patriotudur. Lakin milli maraqların müdafiəsinə yönəlmiş olan elə həmin bu niyyət onu, həm də məhdudlaşdırır: problemə ali, həqiqətən də qlobal səviyyəli baxış müəllif üçün əlçatmaz olub. **HƏQİQƏT** isə ondadır ki, tamamilə məxfi Komitet 300-ün arxasında (söz düşmüşkən, müəllif onu "ALİ nəzarət orqanı" adlandırır – sual meydana çıxır: "nəyin və ya kimin orqanı?") həqiqətən də **GİZLİN**, qüdrətli və bəşəriyyətə qarşı son dərəcə düşməncəsinə köklənmiş qüvvələr mövcuddur. Bu qüvvələr ötəri forma və təşkilati strukturlara bağlı deyillər, onlar

üçün Komitet 300-ün özü və ona daxil olan, onun nəzarət etdiyi çoxsaylı təşkilatlar da pərdə, onların qeyri-insani planlarının həyata keçirilməsi üçün əlverişli və zamanında yaradılan bir formadır. Tarix göstərdiyi kimi, bu **GİZLİN** qüvvələrin ələkeçməzliyi məhz elə onların, dəfələrlə nümayiş etdirilən, formanı konkret həyati, tarixi-sosial və digər şəraitlərə münasibətdə asanlıqla dəyişmək qabiliyyətindən ibarətdir.

Sözsüz etiraf olunmalıdır ki, **GİZLİN** qüvvələrin fəaliyyətinin müasir formalarının, təşkilati strukturlarının təsvir olunmasından və onların fəaliyyətlərinin metodlarından tutmuş, bəşəriyyətin düşmənləri tərəfindən onun üçün hazırlanan sonrakı inkişaf yolunun uzunmüddətli planlaşdırılmasının və proqramlaşdırılmasının müəyyən edilmiş aspektlərinə qədər – bütün bunlar müəllifin xidmətidir. Bu da dəyərlidir ki, müəllifin söhbəti – bu, Amerika cəmiyyətinin, bütün Qərb dünyasının qalası və mərkəzi oxu olan bir cəmiyyətin içindən gələn şahidlikdir.

Kitab bir çox hallarda dərin düşüncələrə, gerçəkliyin yenidən dərk olunmasına təkan verən vəsait kimi qəbul olunur və nəhayət, vətənpərvər və müstəqil düşüncəli insanları dərhal və gecikmədən fəaliyyətə sövq edir. Əks təqdirdə həqiqətən də SABAH GEC OLACAQ!

Çünki SABAH bütün bəşəriyyət üçün açılmaya da bilər!

Kitabın tərcüməsi, 1992-ci il tarixli 2-ci nəşri üzrə edilib.

*Tərcüməçi*

## KOMİTET 300

Bank işini, sığortanı, kömür hasilatını, tibbi preparatların ticarətini, neft sənayesini özündə birləşdirən, hər hansı bir milli sərhəd tanımayan ƏN QÜDRƏTLİ QRUPU təsəvvür edin və bunu da təsəvvür edin ki, onun üzvləri istisnasız olaraq yalnız bu qrup qarşısında məsuliyyət daşıyırlar. Bu, KOMİTET 300-dür.

# I HİSSƏ

## SUİ-QƏSDÇİLƏRİN İERARXİYASI: KOMİTET 300-ün TARİXİ

## ÖN SÖZ

Kəşfiyyatda kadr zabiti karyeram ərzində mənim ciddi məxfilik səviyyəsi olan sənədlərlə dəfələrlə işləmək imkanım olub. Lakin Anqolada zabit-politoloq qismində xidmət etdiyim dövrdə mənə məzmunu qeyri-adi dərəcədə açıq olan bir sıra tamamilə məxfi sənədləri öyrənmək imkanı nəsib oldu. Gördüklərim mənim hiddət və narazılığımı daşırdı və mən bir daha heç vaxt geri dönmədiyim yola qədəm qoydum. Bu məqamdan sonra mənim həyatımın məqsədi Böyük Britaniyanın və Birləşmiş Ştatların hökumətlərinə nə cür qüvvənin nəzarət və idarə etdiyini hamıya göstərmək oldu.

Mən məlum olan bütün gizlin cəmiyyətlərlə - məsələn, "Beynəlxalq İşlər üzrə Kral İnstitutu" (BİKİ = RIIA, Royal Institute for International Affairs), "Beynəlxalq Münasibətlər üzrə Şura" (BMŞ = CFR, the Council on Foreign Relations), "Bilderberq Klubu" (the Bilderbergers), "Üçtərəfli Komissiya" (Trilaterals), Sionistlər (the Zionists), Frankmasonluq (Freemasonry), Bolşevizm-Rozenkreyser-

lik (Bolshevism-Rosicrucianism), eləcə də bu gizlin cəmiyyətlərin bütün qanadları ilə yaxşı tanış idim. Kəşfiyyat xidmətinin zabiti olduğum zaman və hətta bundan da əvvəl, tələbə olduğum mərhələdə Londonda Britaniya muzeyində məşğul olduğum vaxt, mən bu cəmiyyətlər, eləcə də bir çox digər təşkilatlar haqqında əl çata biləcək bütün məlumatları eninə və uzununa öyrənmişdim və hesab edirdim ki, amerikalılar bunlar haqda məlumatlı olmalıdırlar.

Lakin 1969-cu ildə Birləşmiş Ştatlara gələndə mənə aydın oldu ki, "Müqəddəs İoann Yerusalimskiy Ordeni" (the Order of St. John of Jerusalem), "Roma Klubu" (Club of Rome), "Almaniya Marşall Fondu" (the German Marshall Fund), "Çini Fondu" (the Cini Foundation), "Dəyirmi Masa" (the Round Table), "Fabian Cəmiyyəti" (the Fabianists), "Venesiyanın Qara Aristokratiyası" (the Venetian Black Nobility), "Mont Pelerin Cəmiyyəti" (the Venetian Black Nobility), "Cəhənnəm Tayfası Klubu" (Hellfire Clubs) və bir çox başqaları haqda burada ya tamamilə xəbərsizdirlər, ya da, ən yaxşı halda, onların əsl funksiyalarını pis anlayır, yaxud da ümumiyyətlə, anlamırlar.

1969-1970-ci illərdə mən monoqrafiya və maqnitofon yazıları seriyasını buraxmaqla bu vəziyyəti düzəltməyi qərara aldım. Böyük heyrətimə rəğmən, tezliklə müşahidə etdim ki, bir çoxları həmin adları təkrarlamağa başlayıb, sanki onlar bütün yazıçı karyeraları dövründə bunları bilirmişlər. Əslində isə onlar məsələnin məğzindən tamamilə bixəbər idilər, üstəlik də, onlar bir müddət